**“KAPİTAL BANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 500,000 (beş yüz min) ədəd faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ-nə dəyişiklik

**2025**

1. **Dəyişiklik ediləcək mətn:** Baza Emissiya Prospektinin 5.2.2 saylı bəndində "Toplanmış sifarişlərin (tələb) həcmi təklifdən az olarsa, hər bir investorun tələbini tam ödəməklə icra edilir. Toplanış sifarişlərin (tələblərin) həcmi təklifdən çox olarsa, təklif edilən istiqrazlarının sayının tələb olunan istiqrazların sayına olan nisbəti (əmsal) hesablanır. Hər bir investorun abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində investora istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, investorların sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (əvvəlinci sifarişdən sonrakına doğru) nəzərə alınmaqla, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir." ifadəsi *"Kapital Bank istiqrazlarının sayının (təklif), abunə yazılmış investorların sifarişləri (tələb) arasında bölüşdürülməsini (allocation) aşağıdakı qaydalara uyğun olaraq həyata keçirəcəkdir.*

   *İnvestorlar Fiziki və ya Hüquqi şəxslər olmaqla iki qrupa bölünür. İstiqrazların bölüşdürülməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:*

   *1. Fiziki şəxslərin abunə yazılışı sifarişi*
   *2. Hüquqi şəxslərin abunə yazılışı sifarişi*

   *Birinci addımda, Fiziki şəxslərin tələbləri təklifdən az olarsa, hər bir Fiziki şəxsin tələbi tam ödəməklə icra edilir. Fiziki şəxslərin tələbləri təklifdən çox olarsa, təklif edilən İstiqrazların sayının Fiziki şəxslərin tələbinə olan nisbəti (əmsal) hesablanır. Hər bir Fiziki şəxsin abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində investora istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, Fiziki şəxslərin sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (əvvəlinci sifarişdən sonrakına doğru) nəzərə alınmaqla, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir. Növbəti addımda, Hüquqi şəxslərin tələbləri birinci addımdan sonra yerdə qalmış və bölüşdürülməmiş istiqraz sayından (təklif) az olarsa, hər bir Hüquqi şəxsin tələbini tam ödəməklə icra edilir. Hüquqi şəxslərin tələbləri birinci addımdan sonra yerdə qalmış və bölüşdürülməmiş istiqraz sayından çox olarsa, bölüşdürülməmiş istiqraz sayının Hüquqi şəxslərin tələbinə olan nisbəti (əmsal) hesablanır. Hər bir Hüquqi şəxsin abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində investora istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, Hüquqi şəxslərin sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (əvvəlinci sifarişdən sonrakına doğru) nəzərə alınaraq, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir."* ifadəsi ilə əvəzlənsin.

   **Əsaslandırma:** "Kapital Bank" ASC tərəfindən ümumilikdə 2024-cü il ərzində 100,000,000 AZN və 145,000,000 ABŞ dolları həcmində 7 istiqraz emissiyası abunə yazılışı üsulu ilə uğurla həyata keçirilmişdir. Qeyd olunan istiqraz emissiyalarının bəzilərinin abunə yazılışında investorlar tərəfindən toplanmış sifarişlərin həcmi (tələb) buraxılış həcmindən çox olduğu üçün sifarişlər proporsional olaraq icra olunmuşdur. Eyni zamanda, manatla emissiya olunan istiqrazların abunə yazılışı zamanı hüquqi şəxslərin sifarişlərinin həcmi fiziki şəxslərin sifarişlərinin həcmindən yuxarı məbləğdə toplanmışdır.

Bank olaraq əsas hədəflərimizdən biri istiqrazların abunə yazılışında fiziki şəxslərin iştirakını təşviq etmək və onlar üçün istiqraz alışı prosesini daha əlçatan təşkil etməkdir. Bununla bağlı olaraq, Baza Emissiya Prospektinə yuxarıda qeyd olunan dəyişikliyin əlavə edilməsi qərara alınmışdır.

2. **Dəyişiklik ediləcək mətn:** Baza Emissiya Prospektinin:
   3.4 və 16.10 saylı bəndlərdə "illik 10 (on) faiz" ifadəsi *"illik 11 (on bir) faiz"* ifadəsi ilə,
   3.5 və 16.12 saylı bəndlərdə "illik faiz dərəcəsi 10 faiz təşkil edir" ifadəsi *"illik faiz dərəcəsi 11 (on bir) faiz təşkil edir"* ifadəsi ilə,
   3.8 və 16.17 saylı bəndlərdə "illik 10 (on) faiz" və "D – İstiqrazların illik faiz dərəcəsi: 10 (on)" ifadələri müvafiq olaraq *"illik 11 (on bir) faiz"* və *"D – İstiqrazların illik faiz dərəcəsi: 11 (on bir)"* ifadələri ilə əvəzlənsin.

   **Əsaslandırma:** Son dövrlərdə həm bank depozit faizlərində, həm də dövlət və korporativ istiqrazlarında faiz dərəcələrində artım müşahidə edilmişdir. Bazar trendini nəzərə alaraq Kapital Bank istiqrazlarının faiz dərəcəsini mövcud bazar şərtlərinə uyğunlaşdırmaq və investorları rəqabətli gəlirliliklə təmin etməklə istiqrazların satışını stimullaşdırmaq məqsədi ilə illik faiz dəsərəcsinin 10 (on) faizdən 11 (on bir) faizə qaldırılması qərara alınmışdır.

3. **Dəyişiklik ediləcək mətn:** Baza Emissiya Prospektinin 5.2.1 saylı bəndində "abunə yazılışı isə 10 (on) iş günü ərzində həyata keçiriləcəkdir" ifadəsi *"abunə yazılışı isə 20 (iyirmi) təqvim günü ərzində həyata keçiriləcəkdir"* ifadəsi ilə əvəzlənsin.

   **Əsaslandırma:** Kapital Bank istiqrazlarının yerləşdirilməsində əsas hədəflərdən biri daha geniş investor kütləsinə çıxış əldə etmək və fiziki şəxslərin abunə yazılışında iştirakını stimullaşdırmaqdır. Bununla bağlı olaraq, abunə yazılışı müddətinin 10 (on) iş günündən 20 (iyirmi) təqvim gününə artırılması qərara alınmışdır.

"Kapital Bank" ASC-nin İdarə Heyətinin sədri,
Baş icraçı direktor
Hüseynov Fərid Arif oğlu

Tarix: 07.01.2025

"Kapital Bank" ASC-nin İdarə Heyətinin üzvü,
Baş Maliyyə İnzibatçısı
Məmmədov Emin Ağaverdi oğlu

Tarix: 07.01.2025